**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən
2025-ci ildə görülmüş işlərlə bağlı hesabat**

Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə 2024-cü il üzrə qiymətləndirilməsinin nəticələrinə görə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmış Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (bundan sonra - Komitə) 2025-ci ildə də öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuş, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"ndan, "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin icrası, dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə zəruri tədbirlər görmüşdür.

"2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" üzrə 2025-ci il üçün nəzərdə tutulmuş 22 tədbirdən maliyyə vəsaitinin ayrılmaması səbəbindən biri (Beyləqan və Tovuz rayon statistika idarələrinin inzibati binalarının yenidən qurulması və əsaslı təmirinin layihə-smeta sənədlərinin hazırlanması) istisna olmaqla 21-nin icrası tam başa çatdırılmış, Komitənin digər dövlət proqramları üzrə icraçı kimi çıxış etdiyi tədbirlər də tam yerinə yetirilmişdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası üzrə aidiyyəti dövlət orqanlarının (qurumlarının) tələbatının ödənilməsi, qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi məqsədilə müvafiq rəsmi statistika məlumatlarının hazırlanması və yayılması təmin edilmişdir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planına uyğun olaraq, Komitənin aparatında və yerli statistika orqanlarında təntənəli tədbirlər keçirilmiş, 2,1 hektar ərazidə müxtəlif növdə 1794 ağac tingi və gül kolları əkilmiş, abadlıq işləri aparılmış, Komitənin əməkdaşları mediada və elmi jurnallarda məqalələrlə çıxış etmiş, müxtəlif idman yarışlarında, konsert, sərgi və müsabiqələrdə iştirak etmişlər.

"Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn məsələlərin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə təqdim olunacaq hesabat üçün zəruri materiallar hazırlanaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinə göndərilmişdir.

Hesabat dövründə seçmə statistik müayinələr vasitəsilə əldə edilən məlumatların istehsalı davam etdirilmiş, sorğu yolu ilə il ərzində müxtəlif mövzular üzrə 23 statistik müayinə keçirilmiş, əldə edilmiş məlumatlar icmallaşdırılaraq nəşr edilmiş, istifadəçilərə çatdırılmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 28 iyul tarixli, 1114 nömrəli

Fərmanının icrası ilə əlaqədar aidiyyəti dövlət qurumlarından, hasilat sənayesində fəaliyyət göstərən müəssisələrdən məlumatlar toplanılmış, yoxlanılmış və həmin məlumatlar əsasında “Hasilat sənayesində şəffaflıq üzrə məcmu hesabat” adlı toplu hazırlanaraq “Hasilat Sənayesində Şəffaflıq” portalında yerləşdirilmişdir.

***Metodoloji iş və milli statistik təsnifatlar sisteminin inkişafı.*** 2025-ci ildə Komitənin əsas fəaliyyət istiqamətlərindən biri metodoloji bazanın möhkəmləndirilməsi olmuş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla, habelə yerli qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla 16 metodoloji material yenidən işlənilmiş, 21-nə isə müvafiq əlavə və dəyişikliklər edilmiş, 1 hesabat formasının doldurulmasına dair metodiki təlimat hazırlanmışdır. Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi işi davam etdirilmiş, Komitənin Elmi-metodoloji şurasının 2025-ci ildə keçirilmiş 10 iclasında 33 məsələ müzakirə olunmuşdur. Komitənin təşəbbüsü ilə aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla il ərzində 10 hesabat forması yeni redaksiyada təsdiq edilmiş, 1 hesabat forması ləğv edilmiş, 22 formaya isə aktuallığını itirmiş göstəricilərin çıxarılması, tələbata uyğun yenilərinin əlavə edilməsi məqsədi ilə yenidən baxılmışdır.

Milli statistik təsnifatlar sisteminin inkişafı sahəsində işlər davam etdirilmiş, “Milli təhsil təsnifatı”, “Bələdiyyələrin statistik ərazi təsnifatı”, “İqtisadi fəaliyyətdə xidmətlər təsnifatı” və “Məqsədlər üzrə fərdi istehlakın təsnifatı”nın icmal siyahısı yenilənmişdir.

***Keyfiyyətin idarə olunması.*** Komitənin “Audit proqramı”na və Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq struktur bölmələrdə və yerli statistika orqanlarında daxili auditlər, eləcə də yoxlama və nəzarət auditləri keçirilmiş, müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün zəruri tədbirlər görülmüş, “Keyfiyyət üzrə vəsait” və “İnformasiya təminatı və ictimaiyyətlə əlaqələrə dair proseslərin standartları və xəritəsi” yenilənmişdir. Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin veb-səhifəsində hər rüb “Sahibkarlar üçün 7 sual” rəy sorğusu keçirilmiş, nəticələri ümumiləşdirilərək təhlil edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Statistik məlumatların emalı və yoxlanması prosesinin keyfiyyətinin təmin edilməsi üçün 2-bank (rüblük), 1-sığorta (rüblük) və 1-QKT (illik) rəsmi statistika hesabatı formaları ilə əlaqədar Keyfiyyətə nəzarət elektron cədvəllərinin proqram təminatında müvafiq düzəlişlər edilərək təkmilləşdirmə işləri aparılmışdır. Ümumilikdə, nəzarət cədvəlləri vasitəsilə 25 rəsmi statistika hesabatı formasına dair ilkin statistik məlumatlardakı mövcud uyğunsuzluqlar avtomatik aşkar edilərək yol verilmiş xətaların emal prosesində aradan qaldırılması üçün zəruri işlər görülmüşdür.

***Məlumat bazalarının inteqrasiyası***. Dövlət Statistika Komitəsinin “İnzibati Məlumatların İdarə Olunması Sistemi” vasitəsilə Dövlət İmtahan Mərkəzindən əldə olunan məlumatlar “Dövlət qulluqçularının sayı və tərkibi haqqında” 3-əmək №-li illik rəsmi statistika hesabatına, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunmuş əmək müqaviləsi bildirişi üzrə peşə və vəzifələr üzrə orta aylıq əməkhaqqına dair məlumatlar isə onlayn rejimdə “İşçilərin sayı, hərəkəti və əmək haqqı fondu haqqında” 4-əmək №-li aylıq rəsmi statistika hesabatına inteqrasiya edilmiş, bununla da, müvafiq rəsmi statistika hesabatlarını təqdim edən respondentlərə düşən statistik yük əhəmiyyətli dərəcədə azaldılmışdır.

Elm və Təhsil Nazirliyindən əldə olunan inzibati məlumatların sosial statistikada istifadəsi məqsədilə müvafiq proqram təminatı da hazırlanmışdır.

***E-statistika***. 92,0 faizi ölkə ərazisindən, 8,0 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 11,9 min istifadəçinin daxil olduğu Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, nəticədə məlumat bazalarında əsas sosial-iqtisadi göstəricilər üzrə cədvəllərin, təhlil və metodoloji materialların əhatə dairəsi genişləndirilmişdir. Komitə tərəfindən göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, statistika materiallarının istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi məqsədilə statistik məlumatların yığılmasının, işlənməsinin və yayılmasının yeni informasiya texnologiyaları resurslarından istifadə etməklə müasirləşdirilməsi üçün milli hesablar və makroiqtisadi göstəricilər, sosial, xidmət, sənaye və tikinti, energetika və ətraf mühit, ticarət, əmək, həyat keyfiyyəti statistikası, keyfiyyətin idarə olunması üzrə 16 yeni proqram təminatı hazırlanmış, mövcud informasiya sistemləri əsasında yeni icmal məlumatların (cədvəllərin) əldə edilməsi və s. statistik məqsədlər üçün hazırlanmış 13 proqram təminatına isə əsaslı dəyişikliklər edilmişdir. Elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Komitənin rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook", "Youtube", "X" və "İnstagram" sosial şəbəkələrində Komitənin səhifəsinin aktiv fəaliyyəti təmin edilmiş və ölkənin sosial, iqtisadi göstəricilərini əks etdirən infoqrafikalar və videoçarxlar hazırlanaraq yayımlanmışdır. Həmçinin internet səhifənin mobil versiyasının mütəmadi olaraq təkmilləşdirilməsi və statistik məlumatların vaxtlı-vaxtında yenilənməsi davam etdirilmişdir.

Veb-səhifədən istifadə vəziyyətinin, məlumatların əldə edilməsi ilə bağlı göstərilən xidmətlərin keyfiyyətinin, yayımlanan məlumatların dolğunluğunun, ümumiyyətlə istifadəçilərin məmnunluq dərəcəsinin qiymətləndirilməsi məqsədilə onların statistik məlumatlarla təmin olunmasına dair sorğu keçirilmişdir. Media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin də iştirak etdiyi sorğunun nəticələri ümumiləşdirilərək Komitənin internet səhifəsində yerləşdirilmiş, veb-səhifənin "Elektron xidmətlər" bölməsi üzərindən mütəmadi keçirilən "İstifadəçi məmnunluğu sorğusu"nun nəticələri də təhlil edilmişdir. Sorğuda iştirak etmiş istifadəçilərin 95,2 faizi təqdim edilən elektron xidmətin keyfiyyətindən, 96,2 faizi elektron xidmətin təqdim edilməsi üçün hazırlanmış onlayn proqram təminatının strukturundan razılığını bildirmişdir. "Elektron xidmətdən istifadə Sizə hansı üstünlükləri verir" sualına isə istifadəçilərin 39,7 faizi "Vaxt itkisini azaldır", 20,1 faizi "Rahatlığı təmin edir", 19,1 faizi "Neqativ halların baş verməməsi üçün bir vasitədir", 21,1 faizi "Digər üstünlükləri vardır" cavabını qeyd etmişdir.

"Statistik məlumatların (göstəricilərin) verilməsi" və "Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin ödənilməsi" elektron xidmətlərində istifadəçilərin "gizlilik siyasəti" ilə tanış olmaları, həmçinin xidmətlərdən istifadə zamanı dizaynın istifadəçi ekranının ölçülərinə avtomatik uyğunlaşması təmin edilmiş, rəsmi statistika məqsədləri üçün hüquqi və fiziki şəxslər tərəfindən elektron qaydada təqdim edilən ilkin məlumatların məxfiliyinin təmin edilməsi məqsədilə "Digital Login" sisteminin tətbiqi də təmin edilmişdir.

***Kənd təsərrüfatının siyahıyaalınması.*** 2025-ci ildə ölkədə kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə olaraq kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər üzrə siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb edilmiş şəxslər tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla

sorğu yolu ilə, CAPI (Computer Assisted Personal Interviewing – kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə aparılmışdır.

Müstəqillik illərində sayca üçüncü dəfə keçirilən bu dövlət tədbirinin vaxtında və keyfiyyətlə icra edilməsi məqsədilə qarşıya qoyulmuş vəzifələr vaxtında və tam yerinə yetirilmişdir. Kənd təsərrüfatının siyahıyaalınması ilə bağlı təşkilati məsələlər, siyahıyaalma materiallarının hazırlanması və çapı, kadr təminatı, kütləvi izahat işlərinin təşkili, texniki təminat, siyahıyaalmanın keçirilməsi və məlumatların informasiya sisteminə daxil edilməsi istiqamətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin bilavasitə rəhbərliyi ilə Dövlət Statistika Komitəsi və digər aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən zəruri tədbirlər görülmüşdür.

Siyahıyaalmadan əvvəl və siyahıyaalma dövründə onun əhəmiyyəti barədə kənd təsərrüfatı məhsulu istehsalçılarının maarifləndirilməsi məqsədilə genişmiqyaslı izahat işləri aparılmış, bu məqsədlə hazırlanmış plakat və banerlər yerli icra hakimiyyətləri tərəfindən müəyyən edilmiş dislokasiya üzrə yerləşdirilmiş, iki videoçarx isə 2025-ci ilin aprel ayından etibarən sosial şəbəkələr də daxil olmaqla mediada yayımlanmışdır.

Siyahıyaalmanın aparılmasına cəlb edilmiş 11387 şəxslə (10354 sayıcı və 1033 təlimatçı-nəzarətçi) xidmət müqavilələri bağlanmış, müvafiq təlimlər təşkil edilmiş, planşet tipli kompüterlərə yüklənmiş xüsusi proqram təminatları vasitəsi ilə onların fəaliyyətinə, siyahıyaalma məlumatlarının tamlığına və keyfiyyətinə gündəlik nəzarət həyata keçirilmişdir.

Siyahıyaalmanın CAPI üsulu ilə aparılması Azərbaycanda statistik istehsal prosesinin təşkilində innovativ metodların və texnoloji həllərin tətbiqinə üstünlük verildiyini nümayiş etdirmiş, FAO-nun "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyə və tələblərinə tam uyğun şəkildə keçirilməsi isə əldə olunmuş məlumatların beynəlxalq müqayisəliliyini təmin etməklə bu sahə üzrə beynəlxalq təşkilatlardan daxil olan sorğuların tam və dolğun cavablandırılmasına şərait yaratmışdır. Bu isə, öz növbəsində, ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılmasına imkan verəcəkdir.

***Dayanıqlı İnkişaf Məqsədləri.*** 13 yeni göstərici üzrə məlumatlar əlavə olunmaqla Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazası genişləndirilmiş, bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 153-ə çatdırılmışdır ki, onlardan da 112-si milli prioritet kimi müəyyən edilmiş göstəricidir. Milli 18-ci DİM ("Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər") üzrə müəyyənləşdirilmiş 15 göstəricinin hər birinə dair məlumat istehsalı da davam etdirilmişdir.

***Statistik məlumat istifadəçiləri ilə iş***. "2025-ci il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq dövlət orqanları və qurumları təmsilçilərinin, media nümayəndələrinin iştirakı ilə məşğulluq və əməkhaqqı, dayanıqlı inkişaf, təhsil, energetika və ətraf mühit, demoqrafiya, milli hesablar, turizm, qiymət, sənaye və tikinti, ticarət statistikası məsələlərinə, "Həyat keyfiyyətinin statistikası sahəsində keçirilmiş müayinələrdən əldə edilmiş məlumatlar", "Dövlətstatkomun kommunikasiya strategiyası" və s. mövzulara həsr olunmuş və ümumilikdə 201 istifadəçinin iştirak etdiyi 12 seminar-görüş keçirilmişdir.

İl ərzində istifadəçilərdən Komitəyə daxil olan sorğular mütəmadi olaraq təhlil edilmiş, daha çox maraq doğuran göstəricilər müəyyənləşdirilmiş və nəşr edilən məlumatların istifadəçilərin sorğularına uyğunluğu təmin edilmişdir.

Hakimiyyət orqanlarının və digər statistik məlumat istifadəçilərinin cari tələbatının ödənilməsi məqsədilə müxtəlif mövzular üzrə 31 adda statistik məcmuə və digər nəşrlər çap etdirilmiş, 46 təhlili məruzə və 122 mətbu-məlumat hazırlanmış, onların elektron versiyaları Komitənin veb-səhifəsində yerləşdirilmişdir. Yerli statistika orqanları tərəfindən də rayon və

şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 264 təhlili məruzə hazırlanmışdır. Bundan başqa, Komitə tərəfindən 578 məlumat dəstinin “opendata.az” Açıq Məlumatlar Portalında yerləşdirilməsi təmin edilmişdir.

***Beynəlxalq əməkdaşlıq.*** 2025-ci ildə Komitənin fəaliyyətinin əsas istiqamətlərindən birini də beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. BMT və onun təşkilatları, Avropa İttifaqı, BVF, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə əməkdaşlıq, o cümlədən milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi, beynəlxalq məlumat portallarında Azərbaycan Respublikasına aid statistik məlumatların yoxlanılması, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 mart tarixli 166s nömrəli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının “2025-ci ildə kənd təsərrüfatının rəqəmsal siyahıyaalınmasına hazırlıq və onun həyata keçirilməsi üçün potensialın artırılması” layihəsinə dair 2025-ci il 18 mart tarixində imzalanmış Niyyət Məktubu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 aprel tarixli 211s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə verilmiş səlahiyyətə əsasən “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanmış və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq edilmişdir. Eyni zamanda, Belarus və Qırğız Respublikalarının Milli Statistika Komitələri ilə əməkdaşlıq haqqında Anlaşma Memorandumlarının imzalanması üçün müvafiq prosedurlar həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsinin rəhbərliyi Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyasında, Astana şəhərində “Milli statistika sistemlərinin rəqəmsal transformasiyası” mövzusunda Beynəlxalq Forumda, Nyu-York şəhərində BMT-nin Statistika Komissiyasının 56-cı sessiyasında və “Rəsmi Statistika üzrə Yüksək Səviyyəli Forum”da, Budva şəhərində “Dəyişən dünyada rəsmi statistika: statistikanın gələcəyi üçün dəyərlər, səmərəlilik və hazırlıq” mövzusunda Yüksək Səviyyəli seminarda, Düşənbə şəhərində “MDB iştirakçısı olan dövlətlərin milli statistika xidmətlərinin fəaliyyətinin informasiya təminatının təkmilləşdirilməsi”nə dair iclasda, Cenevrə şəhərində Avropa Statistikləri Konfransının 73-cü plenar sessiyası və rəsmi statistikanın modernizasiyası üzrə Yüksək Səviyyəli Qrupun seminarında, Tokio şəhərində Asiya və Sakit okean ölkələri üzrə Statistika İnstitutunun (SIAP) İdarəetmə Şurasının 21-ci sessiyası və Asiya və Sakit okean ölkələrinin milli statistika qurumlarının rəhbərləri üçün 20-ci idarəetmə seminarında iştirak etmişlər.

Komitənin rəhbər heyəti də daxil olmaqla, ümumilikdə 48 əməkdaşı müxtəlif beynəlxalq təşkilatlar və xarici ölkələrin milli statistika qurumları tərəfindən təşkil edilmiş 44 əyani tədbirdə, 86 əməkdaşı isə onlayn formatda keçirilən 52 tədbirdə iştirak etmiş, mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər.

***Ümumdünya Statistika Günü.*** Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli, 69/282 nömrəli Qətnaməsinə uyğun olaraq beş ildən bir keçirilən Ümumdünya Statistika Günü Azərbaycanda da təntənəli şəkildə qeyd edilmişdir. “Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək” şüarı altında qeyd olunan Ümumdünya Statistika Günü ərəfəsində 24-26 sentyabr tarixlərində Bakı şəhərində müasir statistikanın aktual məsələlərinə həsr olunmuş “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 73-cü iclası keçirilmişdir. Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın yüksək səviyyəli nümayəndə heyətlərinin, tanınmış elmi ictimaiyyət xadimlərinin və ekspertlərin qatıldıqları Forumun açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri cənab Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirmiş və giriş nitqi ilə çıxış etmişdir.

Statistika elminin nailiyyətlərinin, iqtisadi-statistik təhlillərin, mühüm statistik göstəricilərin və onların hesablanma metodologiyalarının, statistikaya dair beynəlxalq aləmdə baş verən yeniliklərin geniş ictimaiyyətə çatdırılması məqsədilə təsis edilmiş “Statistika xəbərləri” elmi-praktiki jurnalının Ümumdünya Statistika Gününə həsr olunmuş xüsusi buraxılışı nəşr olunmuşdur. Xüsusi buraxılışda BMT-nin Statistika Şöbəsinin direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, Bolqarıstan, Koreya Respublikası, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkiyənin statistika qurumlarının rəhbərləri tərəfindən Azərbaycan statistiklərinə Ümumdünya Statistika Günü ilə bağlı ünvanlanmış təbriklər, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bankın sədrlərinin, Qazaxıstan, Gürcüstan, Serbiya, Macarıstan və Belarus milli statistika qurumlarının rəhbərlərinin və yüksək vəzifəli əməkdaşlarının, eləcə də ölkənin tanınmış elm adamlarının statistikanın aktual məsələlərinə həsr olunmuş məqalələri əksini tapmışdır.

Gənclər arasında statistikaya marağın artırılması, onlar arasından statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə Ümumdünya Statistika Günü ərəfəsində 3355 nəfər şagird və 198 nəfər tələbənin iştirakı ilə statistik olimpiada keçirilmişdir.

**Qarşıda duran vəzifələr.** Sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi üçün statistik məlumat istehsalının dayanıqlılığını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 25 dekabr tarixli 860 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” ilə milli statistika sisteminin inkişafına dair yeni hədəf və prioritetlər müəyyən edilmiş və onun tam həcmdə və tələb olunan səviyyədə icrasını təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir.